Academic Journal of History and Idea Академическая История и Мысль
Akademik Tarih ve Düşünce Dergisi
ISSN: 2148-2292
*Araştırma Makalesi* https://doi.org/10.46868/atdd.157 *Original Article*

# Bəxtiyar Vahabzadənin poeziyasında istiqlalçılıq

**Günəş Quliyeva***
**ORCID:0000-0002-7147-7151**

**Xülasə**

Bəxtiyar Vahabzadə yaradıcılığında yenidən başlayan istiqlal tariximizin keçdiyi şərəfli yol. Bəxtiyar Vahabzadənin poeziyasında yaşayan istiqlal duyğuları, azadlıq şeirləri, Azərbaycan Türk tarixi, "bu tarixi yaşadan "Gülüstan "poeması, "İstiqlal", "Şəhidlər" poeması. Bəxtiyar Vahabzadə poeziyası milli istiqlal, azadlıq uğrunda savaş müstəvisində tarixi yaşadan, istiqlal, azadlıq, haqq-ədalət, dirəniş, mübarizə yoluna, yolçuluğuna yönələn poeziyadır. Şair problemlərin köklü həllini milli birlikdə, mücadilədə arayır. Mənsub olduğu xalqın həyat, yaşam qayəsini qan yaddaşına, kökə, ilkinliyə yönəltmək, onu oyatmaq, mübarizəyə qoşmaq Bəxtiyar Vahabzadə yaradıcılığının başlıca missiyasıdır. B.Vahabzadə poeziyası aydın şəkildə çox vacib bir mesajı ortaya qoydu ki, milli ideya və demokratik tələb səviyyəsinə qalxmayan şüarlar, peşəkarlıqdan uzaq mübarizə üsulları heç bir istiqlal savaşının qalibiyyətini təmin edə bilməz. Onun yaradıcılığında sosial, estetik problemlərə vətəndaş baxışı və mücadilə, istiqlalçılıq düşüncəsi həmişə vəhdətdə olub. Bu poeziya milli-mənəvi varlığımızın yenilməzliyinə, kökdən gəlib kökə getməsinə, öz haqqına sahib çıxma savaşının müqəddəsliyinə ucaldılmış əbədiyyət abidəsidir. B.Vahabzadə xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən xalq yaradıcılığından ustalıqla bəhrələnən və bu bəhrələnməni istiqlal, müstəqillik savaşımızın tərənnümü istiqamətində böyük ustalıqla sərf etməyə nail olan qüdrətli sənətkardır.

**Açar sözlər:** Bəxtiyar Vahabzadənin poeziyasında istiqlalçılıq, istiqlal duyğuları, azadlıq şeirləri, Azərbaycan Türk tarixi, "bu tarixin "Gülüstan" faciəsi", "İstiqlal", "Şəhidlər" poeması

**Gönderme Tarihi: 27/06/2021** **Kabul Tarihi:29/08/2021**

---

* *Doç. Dr., Bakı Devlet Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının fəlsəfə doktoru proqramı üzrə dissertantı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, Bakı-Azərbaycan, g.quliyeva1981@gmail.com*
***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
QULIYEVA, G., '' Bəxtiyar Vahabzadənin poeziyasında istiqlalçılıq'', *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 3, 2021, s.1136-1149.

© ATDD Tüm Hakları Saklıdır

# Independence in the poetry of Bakhtiyar Vahabzade

**Gunash Guliyeva** *
**ORCID:0000-0002-7147-7151**

**Abstract**

The glorious path of our history of independence, which began again in the work of Bakhtiyar Vahabzade. Feelings of independence living in the poetry of Bakhtiyar Vahabzade, poems of freedom, Azerbaijani-Turkish history, the poem "Gulustan" which makes us live that history, poems "Independence", "Martyrs". Bakhtiyar Vahabzadeh's poetry is a poetry that lives history on the level of the struggle for national independence and freedom, and focuses on the path of independence, freedom, justice, resistance, struggle and journey. The poet seeks a radical solution to the problems in national unity and struggle. The main mission of Bakhtiyar Vahabzadeh's work is to direct the life of the people to the memory of blood, roots, primacy, to awaken it, to join the struggle. Vahabzadeh's poetry conveyed an important message that slogans that do not rise to the level of national ideas and democratic demands, methods of struggle far from professionalism can not ensure the victory of any war of independence. In his work, the civic view of social and aesthetic problems and the idea of struggle and independence have always been united. This poetry is an eternal monument to the invincibility of our national and spiritual existence, to its roots, to the sanctity of the war of self-determination. B.Vahabzadeh is a powerful artist who skillfully uses the folk art that embodies the high human qualities, moral values and moral merits of our people and manages to use this benefit to glorify our war of independence.

**Keywords:** independence, feelings of independence, freedom poems in Bəxtiyar Vahabzade's poetry, Azerbaijan-Turkish history, "Gulustan" tragedy of this history "," Independence "," Martyrs "poem

**Received Date: 27/06/2021** **Accepted Date: 29/08/2021**

---

* *Associate professorDissertant of the Doctor of Philosophy program of the "History of Azerbaijan Literature" department of Baku State University, teacher of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University, Baku-Azerbaijan, g.quliyeva1981@gmail.com*

***You can refer to this article as follows:***
QULIYEVA, G., ‘’ Bəxtiyar Vahabzadənin poeziyasında istiqlalçılıq’’, *Academic Journal of History and Idea,* Vol. 8, Issue 3, 2021, p.1136-1149.

# Независимость в поэзии Бахтияра Вахабзаде

**Гюнеш Гулиева*** 
**ORCID:0000-0002-7147-7151**

**Резюме**

Великий путь нашей исторической независимости, вновь берет начало в творчестве Бахтияра Вахабзаде. Поэзия Бахтияра Вахабзаде оснащена чувством независимости, стихами о свободе, азербайджано-тюркской историей, которая оживляется такими поэмами как «Гюлистанская поэма», «Истиглал», «Мученики». Поэзия Бахтияра Вахабзаде это поэзия, которая ссылается на национальную независимость, войну за свободу и фокусируется на пути независимости, свободы, справедливости, сопротивления и борьбы. Поэт ищет решение всех основных проблем в национальном единстве и борьбе.Главной целью Бахтияра Вахабзаде было направить жизнь и заботу своего народа, к памяти о крови, корнях, первенстве, разбудить и присоединить его к борьбе за самоопределение.Поэзия Б. Вахабзаде освещает крайне важный посыл, который гласит что лозунги, не соответствующие уровню национальных идей и демократических требований, а также методы борьбы далекие от профессионализма, не в состоянии обеспечить победу любой войны за независимость. Творчество Б. Вахабзаде всегда нацеливалось на объединение гражданского взгляда на социальные и эстетические проблемы, идеи борьбы и независимости. Его поэзия - вечный памятник непобедимости нашего национального и духовного существования, его корней и борьбы за самоопределение.Б.Вахабзаде – выдающийся мастер, использовавший народное творчество, объединяющее в себе благородные человеческие качества, моральные ценности и заслуги нашего народа, умудряется задействовать это благо для прославления нашей борьбы за независимость.Работы Бахтияра Вахабзаде направлены на национальную консолидацию азербайджанского народа, с целью борьбы за независимость.

**Ключевые слова:** Чувства независимости, стихи свободы, азербайджано-тюркская история, «Гюлистанская поэма», «Истиглал», «Мученики» этой истории в поэзии Бахтияра Вахабзаде

**Получено: 27/06/2021** **Принято: 29/08/2021**

---

* *доцент, Диссертант программы доктора философии кафедры истории азербайджанской литературы БГУ,преподаватель Азербайджанского государственного педагогического колледжа при Азербайджанском государственном педагогическом университете, Баку Азербайджан*
*.g.quliyeva1981@gmail.com*

***Ссылка на статью:***
QULIYEVA, G., ‘’Bəxtiyar Vahabzadənin poeziyasında istiqlalçılıq’’, *академическая история и мысль*, T.8, NO.3, 2021, C.1136-1149.

## Giriş

Azərbaycan ədəbiyyatı tarixinin istiqlaliyyət savaşı mövzusundan söz açılanda Əhməd Cavaddan, Almas İldırımdan sonra anılan ən böyük şair Bəxtiyar Vahabzadədir. Bəxtiyar Vahabzadə təkcə Azərbaycan mədəniyyətinin deyil, həm də Azərbaycan gerçəkliyinin tərkib hissəsidir, çox sayda Azərbaycan insanı, xüsusilə gənc nəsil həqiqi idealını Bəxtiyar Vahabzadə poeziyasında tapıb. "Bu poeziya ürəklərə təpər, tərəddüd keçirən qəlblərə qətiyyət və inam bəxş etmişdir". Onun poeziyası mənəvi nur, səfərbəredici vasitə kimi həmişə öndə olub. "20-ci yüzilliyin əvvəllərində yeni fikirlərə, siyasi-mənəvi təlatümlərə hamilə olan Azərbaycan cəmiyyəti Sabiri, əsrin müdriklik çağlarında isə Bəxtiyarı dünyaya gətirdi. Bu baxımdan Sabir Bəxtiyarın qanuni, mənəvi atasıdır. O da təsadüfi deyil ki, Bəxtiyarın siyasi-ictimai məzmunlu şeirlərində istiqlalçı şairlərin (Mehmet Akif Ersoy, Tofiq Fikrət, Əhməd Cavad, Almas İldırım və b.) hamısından daha çox Sabirin hayqırtıları ilə fəryadları duyulmaqdadır".

"Vəkil etdi millətin çəkdiyi sitəm məni" düşüncəsi ilə yazıb-yaradan qüdrətli şairin doğma dilimizin, milli kimliyimizin taleyi ilə bağlı narahat düşüncələri sonralar "Latın dili" şeirində, "Mərziyyə" poemasının səhifələrində oyadıcı, hərəkətverici üsyana çevrildi. Bəxtiyar Vahabzadə görkəmli şair, böyük fikir adamı kimi, 1920-ci ildən sonra istiqlalçı nəsillər arasında qurulan əlaqələri ötən əsrin 60-cı illərində yenidən bərpa etməklə poeziyada həmin nəslin hüquqi varsisi olduğunu sübuta yetirdi. Ədəbiyyatşünas alim Mürşüd Məmmədovun təbirincə desək, ikiyə bölünən millətin tarixi faciəsini də bütün çılpaqlığı ilə "Gülüstan" poemasının misralarına hopdurdu, özünün istiqlalçı amalından bir qarış da geri çəkilmədi. Və bu yaşamı, mücadiləsi ilə o, bütöv bir istiqlalçı nəslin ideoloqu, tərbiyəçisi, eyni zamanda, ustadı oldu. Onun adı, imzası olmadan millətin istiqlal hərəkatı yarımçıq və solğun görünər. "Millətim bədbəxtsə, mən hansı haqla, hansı ürəklə Bəxtiyar olum?" ağrısı böyük şairin istiqlal mücadiləsinin təməlində dayandı.

## Bəxtiyar Vahabzadənin vətəndaşlıq idealı

Sovet dönəminin dissident şairi Bəxtiyar Vahabzadə sistemli şəkildə totalitarizmi qamçılamaqdan, istiqlal mücadiləsinə hesablanmış şeirlər yazmağından qalmamışdı. Bu, onun üçün zəruri bir missiya idi. İstiqlal poeziyamızın bayraqdarlarından biri kimi Bəxtiyar Vahabzadə Azərbaycan tarixinə "qırmızı qaranlıqlar" (Əlibəy Hüseynzadə) kimi daxil olmuş

Sovet dönəmində belə zamanla hesablaşmayıb, onun qüdrətli, cəsarətli qələmi və ilhamı sayəsində "Əlahəzrət zaman poeziyanın hüzurunda dayanıb".[1]

Professor Nizaməddin Şəmsizadə həmin dövrün 70 illik total sosiologiya basqısı altında iki cür ədəbiyyatın formalaşdığını yazır: "Bir bolşevik ideologiyasına xidmət edən sovet ədəbiyyatı, bir də sovet dövrünün milli Azərbaycan ədəbiyyatı". B.Vahabzadə ikinci ədəbiyyatı yaradan və ömrünün sonuna kimi öndə dayanan, çoxəsrlik kalssik poeziyamızdan gələn fəlsəfi-intellektual şeirimizin qüdrətli nümayəndəsidir: "Çünki müasirlərindən heç kim dünya fəlsəfi poeziya təcrübələrini onun qədər uğurla milli-poetik sistemimizlə birləşdirə bilməyib. Onun bir şair kimi fəaliyyəti mənsub olduğu xalqın tarixi, mənəvi həyatı, etnoqrafik təfəkkürü, bir sözlə, iç dünyası ilə bağlılığındadır. O, fəlsəfi-intellektual şeirə bu iç dünyadan gəlir". Bəxtiyar Vahabzadə əsl vətəndaş şairdir. Onun ictimai idealı da, estetik dünyası da məhz vətəndaşlıq, istiqlalçı düşüncəsindən qaynaqlanır. B.Vahabzadə yaradıcılığı "milli taleyimizə dünya müharibələri, inqilabi çevrilişlər, siyasi qalmaqallar, qanlı repressiyalar, mənəvi aldanışlar erası kimi daxil olmuş XX əsrin kardioqramasına bənzəyir. Burada infarkt keçirmiş ürək kimi taleyin amansız zərbələrindən parça-parça olmuş Azərbaycanın ölməz obrazı bütün əzəmətilə poetikləşir... O, tariximizi poetik gözlə, şair fəhmi ilə oxuyur, eyni zamanda tarixi taleyimizə dünya səviyyəsindən nəzər salmağa nail olur" (N.Şəmsizadə). B.Vahabzadə poeziyası milli istiqlal, azadlıq uğrunda savaş müstəvisində tarixi yaşadan, tarixi istiqlal, azadlıq, haqq-ədalət, dirəniş, mübarizə yoluna, yolçuluğuna yönələn poeziyadır. Mənsub olduğu xalqın həyat, yaşam qayəsini qan yaddaşına, kökə, ilkinliyə yönəltmək, onu oyatmaq, mübarizəyə qoşmaq B.Vahabzadə yaradıcılığının başlıca missiyasıdır. Bu poeziya milli-mənəvi varlığımızın yenilməzliyinə, kökdən gəlib kökə getməsinə, öz haqqına sahib çıxma savaşının müqəddəsliyinə ucaldılmış əbədiyyət abidəsidir. B.Vahabzadə görkəmli türk ədəbiyyatşünası İsmayıl Hikmətin həyat fəlsəfəsinin, istiqlal düşüncəsinin dərsini yetərincə mənimsəmişdi ki: "İlham pərdəsinin zərif gərdəninə istibdad zənciri vurmazlar, ipək saçlarına istiqlal çələngi hörərlər". Bu mənada B.Vahabzadə yaradıcılığı bütövlükdə və bütün yönləri ilə Azərbaycan poetik təfəkkürünün istiqlal çələngidir. Müstəqilliyimizin bərqərar olması, istiqlaliyyətimizin var olması prosesində B.Vahabzadə yaradıcılığının müstəsna, əbədiyaşar yeri var. Bu poeziya zaman-zaman yağmalanmış, tikə-tikə doğranmış, olmazın zülmünə düçar edilmiş, haqqı tapdalanmış, namərdliklə üz-üzə qalmış Azərbaycanımızın yaralarına məlhəm olan, ona bu bəlalardan çıxış yolu göstərən bir vasitədir. Bu poeziya Babək əqidəsi, Koroğlu yenilməzliyi, Şah İsmayıl Xətai cəsarəti ilə qundaqlanıb. Onun poeziyası yaddaşın, milli

[1] Nizaməddin Şəmsizadə, *Seçilmiş əsərləri,* C.III "Elm", 2011, səh.425.

düşüncənin fəryadı, oyanış təbili kimidi. SOS işarəsi kimi hər an milli düşüncəyə mesaj verir ki, ayıq olun, sayıq olun, milli kimliyimizə sahib çıxın, özünüzə, könlünüzə layiq olun.

B.Vahabzadə xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən xalq yaradıcılığından ustalıqla bəhrələnən və bu bəhrələnməni istiqlal, müstəqillik savaşımızın tərənnümü istiqamətində böyük ustalıqla sərf etməyə nail olan qüdrətli sənətkardır. Onun yaradıcılığında sosial, estetik problemlərə vətəndaş baxışı və mücadilə, istiqlalçılıq düşüncəsi həmişə vəhdətdə olub. B.Vahabzadə bütün yaradıcılığı boyunca mənsub olduğu xalqı milli oyanışa, öz-özünü dərindən dərk etməyə, bu yöndə öz gücünü, qüdrətini, istedadını, intellektual potensialını hərəkətə gətirməyə səsləyib. Təbliğ edib ki, biganəliyə, milli dəyərlərə xor baxmaq hallarına qarşı barışmaz mövqedə dayanmaq lazımdı, həyatda özü olmayanların sözü olmur:

Özünü dərk eylə, özünü ağla,
Gah ona, gah buna baş əydin, yetər.
Özgəyə bu qədər yalmanmağınla
Özünə düşmənsən özgədən betər.
Nəyəmsə mən oyam, qarayam, ya ağ,
Niyə özgəsinə küsənməliyəm.
Özüm olmalıyam, mən özüm ancaq, -
Özüm deyiləmsə, demək heç nəyəm.[2]

### İstiqlal poeziyası

B.Vahabzadə poeziyası sözün həqiqi mənasında dönməz bir savaşçı, mücadilə yolçusunun poeziyasıdır. Bu poeziya təlqin edir ki, milli azadlıq, istiqlal yolunda xalq öz gücünü yenilməz, sərt dağlara, qayalara belə göstərməli, hər cür qorxu-hürkünü dəf etməyi bacarmalı, cəsarətlə silahlanmalıdır. Yoxsa "Latın dili" şeirində təsvir edilən durum qarşısında qalmaq hər an taleyini izləyəcək:

"Mən azadam, müstəqiləm" sözlərini
Öz dilində deməyə də
İxtiyarın yoxsa əgər,
De, kim sənə azad deyər?..
Söylə, söylə, necə azadsan ki,
Komalarda dustaq olub ana dilin?

[2] ''Türk dünyasının Bəxtiyarı'', *Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı, və ictimai fəaliyyəti haqqında məqalələr toplusu,* II hissə, Təfəkkür nəşriyyatı, Bakı 2002, s.208.

Böyük-böyük məclislərdən
İtirilib ilim-ilim...[3]

Bəxtiyar Vahabzadə fikri öz mahiyyəti etibarilə aristokratizmin ifadəçisidir. Bununla belə o, aristokratizmi fərdiyyətçiliklə praqmatizmi özündə birləşdirən burjua düşüncəsinə, bu yöndə özünü büruzə verən hər cür mənəviyyat və bazar iqtisadiyyatı diqtəsinə müxalifdir. Onun vətəndaş-şair dünyagörüşü aristokratizm

anlayışı daxilində yalnız haqqın gücünü tanıyır və təqdir edir, adına zorakılıq, haqsızlıq, istila deyilən nəsnələrə qarşı üsyana çağırır. B.Vahabzadə fikrinin aristokratizmində milli qürur hissi ön qatdadır. Hər məqamıyla xalqının istiqlaliyyət savaşının yanındadır və bu yöndən xalqının azadlıq istəyinə qarşı dayanan qüvvələrə qarşı etiraz edir ki:

Ey ikibaşlı qartal,
Üç yüz ildir dad çəkir
Dünya sənin əlindən.
...Sən dostluq deyə-deyə
Xalqlara düşmən oldun.
Azadlıq deyə-deyə
Azadlıq göylərində
Duman oldun, çən oldun.[4]

Heç də təsadüfi deyil ki, 1988-ci ildə Azərbaycan xalqının milli-azadlıq hərəkatının alovlanması, müstəqillik uğrunda aparılan mübarizə B.Vahabzadənin də yaradıcılığında yeni bir mərhələnin başlanğıcı oldu. İstiqlal mövzusu onun poeziyasında ən əsas, aparıcı mövzuya çevrildi. Bu, heç də təsadüfi deyildi. Çünki B.Vahabzadə ömrü boyu xalqının, millətinin istiqlalını arzulamış, bu amal yolunda təqiblərdən, sistemin təhdidlərindən belə çəkinməmişdir. Əsl vətəndaş mərdanəliyilə bəyan etmişdir ki:

Azadlıq, azadlıq, ömrüm boyunca,
Sənin acın oldum, möhtacın oldum.
Zaman dilimizi qıfıllayınca,
Mən sənin daha çox Leylacın oldum.[5]

B.Vahabzadənin sənətkar yolu aydın, eşqi dərin, əqidəsi, məsləki aydın olan bir yoldur. Bu yolla gedən hər bir kəs nifrətini qurşun edib düşməninin sinəsində soyutmağın savabını yaxşı bilənlərdir. Azərbaycan adına, türk ruhuna tapınanlardır. Dosta dost, düşmənə

[3] ‘’Türk dünyasının Bəxtiyarı’’, s.187.
[4] ‘’Türk dünyasının Bəxtiyarı’’, s.106.
[5] ‘’Türk dünyasının Bəxtiyarı’’, s.105.

göz dağı olanlardır. Yenilməzlik bayrağıdır. Belə insanlar vətənin qayalarını qılınc, dərələrini sipər, səngər bilirlər. Beləlləri anadan qopub, alınıb millətə oğul olurlar.

B.Vahabzadə bu yaranışın, doğuşun şairidir. B.Vahabzadə cəsarəti, qətiyyəti, dönməzliyi istiqlal savaşı yolunda həmişə xalqının yanında olub. Onun azadlıq mücadiləsinə dəstək verib. Bu yöndə millətinə hava və su kimi gərəkli olub. Hələ sovetlər dönəmində o, müstəmləkə zülmünə məruz qalan xalqlara ünvanladığı şeirlərində öz doğma millətinin düçar olduğu məhrumiyyətlərin ağrı-acısını təsvir etməkdən çəkinmir, fövqəladə bir cəsarətlə yazırdı:

İçimi göstərmədim
Cahil tutan güzgüyə.
Üzdə gülüb,
içimdə müşkülümə ağladım.
Millətimin dərdini
Ünvanlayıb özgəyə,
Başqasının yasında
Öz ölümə ağladım.[6]

"Şəbi-hicran"dan sonra "Gülüstan" poemasını qələmə alan B.Vahabzadə, belə demək mümkünsə, Azərbaycanda ilk dissident şair kimi tanındı. Vətəndaş poeziyamızın bayraqdarı oldu. Təsadüfi deyil ki, dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatov B.Vahabzadə yaradıcılığının bu dəyərli cəhətlərindən bəhs edərkən yazırdı: "...B.Vahabzadənin poetik təfəkkürü, mədəniyyəti çox üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri fövqə qalxır. Milli və beynəlmiləl münasibətlər problemi günümüzün canlı mübahisələrinə çevrilən məsələlərdən biridir və bu problem öz mütərəqqiliyini, nadir əhatəliliyini və məhsuldarlığını bir daha B.Vahabzadənin yaradıcılığında tapıb".[7]

"Zülmün üzünə haqq deyən şilləni çəksən, Şilləndə möhürlənmiş o qeyrətdədir Allah" düşüncəsi ilə yazıb-yaradan B.Vahabzadə əsl istiqlal şairi kimi öz xalqının azadlıq mücadiləsinə sistemli şəkildə təkan vermiş, əqidəsinin, eşqinin, qanının rəngi bildiyi müstəqil Azərbaycan bayrağının daim başımız üstündə qürurla dalğalanması naminə poeziyanın, ümumən ədəbiyyatın bütün imkanlarından istifadə etmişdi.Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev 6 iyul 1997-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin yubileyinə həsr edilmiş təntənəli iclasda etdiyi çıxışında B.Vahabzadənin sovetlər dönəmi zamanı bütün türk dünyasının mənəvi yüksəlişi və birliyi naminə apardığı mücadiləni yüksək qiymətləndirərək

[6] ''Türk dünyasının Bəxtiyarı'', s.79.
[7] Ədalət qəzeti, 19 avqust, 2000.

xatırlayırdı: "Mən hələ Dövlət Təhlükəsizlik Komitəsində işləyən zaman B.Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim. Qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirindədir. Belə bir insan o vaxt böyük fəlakət qarşısında idi. Nəyə görə? Heş bir cinayəti yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı. "Gülüstan" poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular".[8]

Həmin vaxtdan böyük bir zaman məsafəsi keçmiş, nəticədə Azərbaycan tarix səhnəsində bir daha müstəqilliyinə nail olmuşdur. Müstəqilliyin bayrağının nə qədər əziz olmasını poeziya müstəvisində yetərincə gözəl anladan B.Vahabzadənin tarixi ədalətin bərpa olunmasında müstəsna xidməti var. Bu xidməti Azərbaycan xalqı heç vaxt unutmur. Hər kəs xatırlayır ki, müstəqilliyimiz uğrundakı savaşın başlanğıcında ədəbiyyat müstəvisində B.Vahabzadə qədər hünərvərliklə tək-tək yaradıcı insan çaba göstərə bilmişdi. Eyni zamanda sovet hakimiyyəti illərində xalqının düşdüyü acınacaqlı vəziyyəti, rus imperiyasının apardığı assimilyasiya siyasətini, milli zülmü əsərlərində əks etdirməyə çalışan yazıçılar və şairlər arasında B.Vahabzadənin müstəsna rolu olmuşdur. Böyük şair, dramaturq Hüseyn Caviddən, eləcə də istiqlal şairi Əhməd Cavaddan, Almas İldırımdan sonra B.Vahabzadə Azərbaycan ədəbiyyatında sovet zülmünə qarşı açıq etiraz edən, səsini ucaldan ilk şairdir. 1959-cu ildə yazdığı "Gülüstan", 1963-cü ildə qələmə aldığı "Yollar və oğullar" poemalarında o, ölkəsinin müstəmləkə halında yaşadığını, milli tarixinin və soykökünün inkar edilməsini və s. böyük vətəndaş-şair əzmkarlığı ilə bəyan etdi. "Şükür" namazını qibləsiz qılmağa məcbur edilmiş müsəlman-türk insanlarının ağır durumu bir sənətkar kimi onu həmişə dərindən maraqlandırmışdır. Bütün yaradıcılığı və yaşamı boyunca B.Vahabzadənin qəlbində millətin ağrıları qövr edib. Bu problemdən çıxış yolu onun baş mövzusu olub.

**B.Vahabzadənin imperializmə qarşı üsyanı**

1968-ci ildə B.Vahabzadə Asiya və Afrika yazıçılarının müşavirəsində iştirakı zamanı burada məmləkətlərinin istiqlalını tələb edən görkəmli sənətkarların çıxışlarını dinləyir. Konfransı sovet hökuməti yüz min manatlarla xərc hesabına təşkil etmişdi. Məqsəd əzilən xalqların əzən imperialist dövlətlərə qarşı üsyanını bütün dünyaya bildirmək idi. Amma konfransın təşkilatçıları, sovet ideoloqları nəzərdən qaçırırdılar ki, ən böyük, ən usta imperialist, "parçala, hökm sür" düşüncəsinin fikir babası elə sovet dövlətinin özüdür. Unudurdular ki, həmin konfransda Afrika və Asiyadan dəvətli olan sənətkarlarla yanaşı oturan Azərbaycan şairi B.Vahabzadə içində yaşadığı sovet quruluşunun eybəcər, hiyləgər

[8] Xalq qəzeti, 6 iyul, 1997-ci il.

imperialist sifətini çox gözəl görür və elə oradaca onun əleyhinə "Neo" adlı şeirinin ilk misralarını yazırdı. Ömrü boyu istiqlal arzusu ilə yaşayan, yazıb-yaradan şair üçün həyat devizi, həyat proqramı həmin şeirin ikicə misrasında belə bütün əzəməti, gerçəkliyi ilə öz əksini tapmışdı:

Təməldən uçula evi zalımın,
Qurula binası istiqlalımın.

Yuxarıda adı çəkilən konfransın təəssüratları altında B.Vahabzadə "Yollar-oğullar" adlı poemasını yazdı. Poema böyük hay-küyə səbəb oldu.[9]

Şair "İstiqlal" kitabına yazdığı ön sözdə baş verənləri belə xatırlayır:
"Poemanı çap üçün "Azərbaycan" dərgisinə verdim. O zaman dərgidə çalışan qələm yoldaşım (artıq rəhmətə getmiş bir şair) açıq imza ilə Yazıçılar İttifaqının sədri Mehdi Hüseynə, KQB-yə və MK-ya məktubla müraciət edərək, bu əsərdə Əlcəzair – fransız münasibətlərindən deyil, rus-Azərbaycan münasibətlərindən bəhs olunduğunu və bu əsərin antisovet cəbhəsindən yarandığını iddia etdi. Bu gün mən xatirəsi önündə böyük hörmət, minnətdarlıq və şükranlıq hissi ilə deməliyəm ki, həmkarımın yazdığı donos nə qədər həqiqət olsa da, məni o bəladan Mehdi Hüseyn xilas etdi.[10]

Həmin o ağır illərdə qələmə aldığı "Ağlar güləyən" adlı poemasında B.Vahabzadə M.Ə.Sabirin dili ilə öz azadlıq arzusunu belə ifadə edir:

İstəyirəm azadlıq
Məni yerdən götürən
Güclü bir qanad olsun.
İstəmirəm azadlıq
Mən arzumun səsiyəm.
Mənə dərman neyləsin? –
Azadlıq xəstəsiyəm.
Hansı qanunda var ki,
Öz elindən olasan,
Öz dilindən olasan?
Hədəf də sən olasan,
Güllə də sən olasan...
Hansı qanunda var ki,
Bir xalqın ana dili

[9] Bəxtiyar Vahabzadə, *Seçilmiş əsərləri,* C.I , Öndər nəşriyyat, Bakı, 2004, s.180.
[10] "İstiqlal", 1999, səh. 61-62.

Dilim-dilim kəsilə?
Sənə yasaq edələr,
“Yandım” – deməyə belə...[11]

O zaman bu sətirləri oxuyan hər kəs Sabirin dililə verilən bu alovlu misraların arxasında rəsmi dairələrdən qovulan öz ana dilinin vəziyyətini və taleyini düşünüb, vətəninin müstəmləkə olduğunu anlamalı, dərk etməli idi. Bu yöndən B.Vahabzadə ötən əsrin 50-ci illərindən başlayaraq milli düşüncə tərzinin təbliğatçısı kimi yazıb-yaratmağa başlamışdı. Onun bir çox əsərləri zamanı qabaqlamış, milli özünüdərkə müstəsna şəkildə təkan vermişdi. Milli şüurun oyanmasında B.Vahabzadənin xidmətləri bu baxımdan əvəzolunmazdır. Yalanın hakim, böhtanın gözətçi olduğu həqiqətin zindanda çürüdüyü bir aləmin, sistemin gerçək üzü onun yaradıcılığında qətiyyətli və sistemli şəkildə öz əksini tapmışdır. Bu misralar totalitar, basqıçı sistemin yaşam tərzini bütün aydınlığı ilə göz önünə gətirməkdədir:

...Həftələr dəyişdi, günlər dəyişdi,
Təriflər dəyişdi, yönlər dəyişdi.
Qiblələr dəyişdi, dinlər dəyişdi,
İtə ot verilir, ata ət indi.
Yalanlar həqiqət qiyafəsində,
Yeklər cövlan edir şeş xanəsində.
Oğrular, əyrilər zəmanəsində,
Əyrilik sayılır fərasət indi.[12]

Totalitar bir sistemin (fərqi yoxdur, hansı dövr, zaman olursa-olsun) gerçək sifətini, simasını və yaşamını bundan dəqiq, bundan tutarlı şəkildə necə xarakterizə etmək olar? Üsyankar bir qəlbin özgürlük, istiqlal istəyini bundan təsirli şəkildə necə hayqırmaq mümkündür:

Tanınmaq istərəm mən öz səsimlə,
Bəsdir yaşadığım bir məhkum kimi.
Dünyanın gözünə yaxşı-pisimlə,
Görünmək istərəm olduğum kimi.

“Özüm deyiləmsə, demək heç nəyəm” düşüncəsi ilə yazıb-yaradan görkəmli şairin hər misrası böyük bir xalqa ulu Xaqan Mehmetin, Atillanın qüdrətli çağırışını xatırlatmaqdadır ki, “özünə dön, özünə qayıt, özün ol, türk insanı, sən özünə qayıdanda, özün olanda daha çox qüdrətli, yenilməz olursan!” Bütün ömrü boyu xalqın yaddaşında millət məhfumunun

[11] ‘’Türk dünyasının Bəxtiyarı’’, s.228.
[12] ‘’Türk dünyasının Bəxtiyarı’’, s.155.

formalaşmasına, milli şüurun oyanışına təkan verən və bu yolda min bir əzaba qatlaşan şair kütlənin millətə çevrilməsi üçün bütöv bir akademiyanın, güclü siyasi mərkəzin görə bilməyəcəyi işi təkbaşına həyata keçirmiş, gerçəkləşdirmişdir. Zamanın qayğı və ziddiyyətlərinə, sistemin "ayır-buyur" təbiətinə çevik müdaxilə, dövrün aparıcı ictimai rəyini ifadə etmək missiyası B.Vahabzadə poeziyasının lirik qəhrəmanlarını düşündürən başlıca cəhətlərdir. Onun milli kimlik, vətən, doğma dil, müstəqillik haqqında olan düşüncələri oxucunu inandırır, səfərbər edir, oyadıcı rol oynayır. Milli-mənəvi birlik idealı, bütövlüyə çağırış notları Bəxtiyar Vahabzadə yaradıcılığının ictimai silqətini tamamlayır.

**Nəticə**

Bəxtiyar Vahabzadənin yaradıcılığı janr baxımından olduğu kimi, mövzu və problem cəhətdən də zəngin, çoxşaxəlidir. İnsan və zaman, milli azadlıq, istiqlalçılıq, gözəllik və sevgi, türkçülük onun yaradıcılığında önəmli yer tutur. Bəxtiyar Vahabzadə dissident şair kimi Azərbaycan ədəbiyyatına daxil olmuşdu. Bəxtiyar Vahabzadə yaradıcılığında istiqlalçılıq o zamanki SSRİ-də "Xruşşov mülayimləşməsi" dövrü – 1956-cı ildə XX partiya qurultayında Stalinin şəxsiyyətinə pərəstiş və onun nəticələri ləğvindən sonra Bəxtiyar Vahabzadə və onun müasirlərinin ədəbiyyatda-poeziyada milli amilinə üstünlük verməsinə səbəb oldu. Belə bir tarixi dövrdə B.Vahabzadə "Gülüstan" kimi milli-tarixi dəyərlərimizi təcəssüm etdirən bir poema yazmışdır. Eyni zamanda müxtəlif rejimlərdə mövcud olmasına baxmayaraq Azərbaycan və Türkiyədə paralel ədəbi mühitlər mövcud olmuş və Bəxtiyar Vahabzadə yaradıcılığında hər iki mühitin, həm Türkiyə, həm də Azərbaycan ədəbiyyat mühitinin ədəbi-tarixi nəticələrindən faydalanmışdır.

## Kaynaklar

‘’Türk dünyasının Bəxtiyarı’’, *Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı, və ictimai fəaliyyəti haqqında məqalələr toplusu,* II hissə, Təfəkkür nəşriyyatı, Bakı 2002, s.79-228.

ŞƏMSİZADƏ, N., *Seçilmiş əsərləri,* C.III, “Elm”, Bakı 2011.

VAHABZADƏ, B., *Seçilmiş əsərləri,* C.I, “Öndər nəşriyyat”, Bakı, 2004.

İstiqlal, 1999, 61-62.

Ədalət qəzeti, 19 avqust, 2000.

Xalq qəzeti, 6 iyul, 1997.